# Azərbaycan Respublikasının Nazirlər Kabineti

# «Dövlət tənzimlənməsi tətbiq olunan tariflərin (qiymətlərin) formalaşması və tətbiqi üzərində dövlət nəzarətinin təmin edilməsi Qaydaları»nın təsdiq edilməsi barədə

# Qərar № 247

***Bakı şəhəri, 30 dekabr 2005-ci il***

«Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası haqqında Əsasnamə»nin təsdiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 26 dekabr tarixli, 341 nömrəli Fərmanının 3.4-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. «Dövlət tənzimlənməsi tətbiq olunan tariflərin (qiymətlərin) formalaşması və tətbiqi üzərində dövlət nəzarətinin təmin edilməsi Qaydaları» təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Baş naziri***

***A. RASİ-ZADƏ***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (31 dekabr 2005-ci il, № 12, maddə 1246)***

***16 iyul 2014-cü il tarixli, 245 nömrəli; 26 dekabr 2014-cü il tarixli, 403 nömrəli Qərarlara əsasən dəyişikliklərlə***

*Azərbaycan Respublikası*
*Nazirlər Kabinetinin*
*2005-ci il 30 dekabr tarixli,*
*247 nömrəli qərarı ilə*
***təsdiq edilmişdir***

# Dövlət tənzimlənməsi tətbiq olunan tariflərin (qiymətlərin) formalaşması və tətbiqi üzərində dövlət nəzarətinin təmin edilməsi

# Qaydaları

## I. Ümumi müddəalar

1.1. Bu Qaydalar «Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası haqqında Əsasnamə»nin təsdiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 26 dekabr tarixli, 341 nömrəli Fərmanının 3.4-cü bəndinin icrasını təmin etmək məqsədi ilə «Təbii inhisarlar haqqında», «Tənzimlənən qiymətlər haqqında» Azərbaycan Respublikası qanunlarının tələblərinə uyğun hazırlanmışdır.

1.2. Bu Qaydalar dövlət tənzimlənməsi tətbiq olunan qiymətlərin (tariflərin) (bundan sonra — qiymətlər) formalaşması və tətbiqi üzərində dövlət nəzarətinin təmin edilməsi məsələlərini tənzimləyir.

1.3. Qiymətlərin formalaşması və tətbiqi üzərində dövlət nəzarətini Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası (bundan sonra — Şura) həyata keçirir.

## II. Dövlət tənzimlənməsi tətbiq olunan qiymətlərin formalaşması qaydası

2.1. Qiymətləri dövlət tərəfindən tənzimlənən malları (xidmətləri) istehsal edən (xidmət göstərən) subyektlərin (bundan sonra — subyektlər) qiymətləri gəlirin əldə edilməsi ilə bağlı olan bütün xərcləri, xərcləri tənzimləyən normativ hüquqi aktlara, habelə bu qaydalara və qaydalar əsasında hazırlanmış sənədlərdə nəzərdə tutulmuş tələblərə uyğun olaraq müəyyən edilir.

2.2. Qiymətləri tənzimlənən malın (xidmətin) xüsusiyyətlərindən asılı olaraq zəruri hallarda Şura tərəfindən məhsulun (xidmətin) maya dəyərinə daxil edilən xərclərin strukturuna (tərkibinə), habelə iqtisadi cəhətdən əsaslandırılmaqla istehsal güclərinin texniki, texnoloji və s. göstəriciləri nəzərə alınmaqla, əsas istehsal xərclərinin sərf normalarına dair qərar qəbul edilə bilər.

2.3. Malların (xidmətlərin) qiymətləri qanunvericiliyə uyğun olaraq həmin qiymətdə nəzərdə tutulan vergilər, dövlət rüsumları və digər icbari ödəmələr daxil edilməklə müəyyən müddətlər, habelə istehlakçı qrupları üzrə diferensiallaşdırılmaqla təsdiq edilə bilər.

2.4. Dövlət tənzimlənməsi məqsədi ilə təqdim olunan sənədlər hər bir əmtəə (xidmət) və ya əmtəə (xidmət) dəsti üzrə ayrı-ayrılıqda və həm də xərc maddələri üzrə qüvvədə olan norma və tələblər əsasında hazırlanır.

2.5. Şura tərəfindən zəruri hallarda tənzimlənən qiymətlərin formalaşmasına əsaslı təsir göstərən xərclərin azaldılmasına, istehsal (xidmət) xərclərinin kənar amillər hesabına artırılmasının qarşısının alınmasına və vaxt göstəriciləri üzrə qiymətlərin diferensiallaşdırılmasına dair qərarlar qəbul edilə bilər.

2.6. Şura tərəfindən ayrı-ayrı istehlakçı qruplar, müəssisə və təşkilatlar, investorlar üçün qiymətlər üzrə güzəştlərin verilməsinə, habelə limit və normaların müəyyənləşdirilməsinə dair aidiyyəti üzrə təkliflər verilə bilər.

2.7. Malların (xidmətlərin) qiymətlərində mənfəətin (rentabelliyin) nəzərə alınması aşağıdakı qaydada və şərtlərlə həyata keçirilir:

2.7.1. qiymətlərdə nəzərdə tutulan rentabellik səviyyəsi subyektin maliyyə-təsərrüfat fəaliyyətinin ahəngdarlığına, o cümlədən zəruri ehtiyaclarının ödənilməsinə şərait yaratmalıdır;

2.7.2. subyektlərin və yaxud onların istehsal etdikləri ayrı-ayrı mallar (xidmətlər) üzrə rentabellik normasının səviyyəsi və ya həddi (maya dəyəri nəzərə alınmaqla) Şura tərəfindən əvvəlcədən müəyyənləşdirilə bilər;

2.7.3. malların (xidmətlərin) rentabellik səviyyəsi müəyyənləşdirilərkən subyektə dövlət zəmanəti verilmiş kreditlərin hesabına qoyulmuş investisiyaların qaytarılmasını təmin edəcək məbləğ ayrıca göstərilməli, bu xərclər ödənildikdən sonra isə həmin məbləğ həcmində müvafiq düzəlişlər aparılmalıdır;

2.7.4. Şura tərəfindən zəruri hallarda malların (xidmətlərin) qiymətlərində nəzərdə tutulan rentabellik normasının səviyyəsi məhdudlaşdırıla bilər;

2.7.5. subyektlərin mallarının (xidmətlərinin) qiymətlərinin ölkənin sosial iqtisadi inkişafına səmərəli təsirinin artırılması, iqtisadiyyatın prioritet sahələrinə intensiv investisiya qoyuluşunun stimullaşdırılması və sahələrin xüsusiyyətləri əsas götürülməklə qiymətlərin tənzimlənməsi üsulu Şura tərəfindən seçilir və tətbiq olunur;

2.7.6. subyektlərin mallarının (xidmətlərinin) qiymətlərinin ölkənin sosial iqtisadi inkişafına səmərəli təsirinin artırılması və iqtisadiyyatın prioritet sahələrinə investisiya qoyuluşunun stimullaşdırılması üçün mənfəət beynəlxalq təcrübəyə istinad olunaraq sərmayələrin faizi və rentabellik normasının səviyyəsi əsasında da müəyyənləşdirilə bilər;

2.7.7. subyektlərin mallarının (xidmətlərinin) qiymətləri xidmət şərtləri, tələb və təklif, bazar konyunkturası, rəqabət tələbləri və s. nəzərə alınmaqla bazar qiymətlərinə uyğun şəkildə müəyyənləşdirilir, qiymətlərin tənzimlənməsi üsulu Şura tərəfindən seçilir və tətbiq olunur.

2.8. Bu Qaydalarla təsdiq edilmiş formaya uyğun olaraq subyektlər tərəfindən dövri olaraq hər il martın 1-dək hesabat materialları Tarif (qiymət) Şurasına təqdim edilir. Həmin materiallar təhlil edilir və aşağıdakı hallarda qiymətlərin yenidən tənzimlənməsi həyata keçirilir:

2.8.1. obyektiv səbəblərdən malların (xidmətlərin) istehsal xərclərinin artması və ya azalması zamanı;

2.8.2. qiymətlərin dəyişdirilməsi üzrə subyektlərin təklifləri müəyyən olunmuş tələblər əsasında hazırlanaraq təqdim edildiyi və əsaslandırıldığı halda;

2.8.3. dünya bazarında qiymətlərin kəskin dəyişməsi və ölkədə yaranmış sosial-iqtisadi vəziyyətdən asılı olaraq;

2.8.4. zəruri hallarda Şuranın təşəbbüsü ilə də qiymətlərin tənzimlənməsi aparıla bilər.

2.9. Subyektlər malın (xidmətin) qiymətinin dövlət tənzimlənməsinin təmin edilməsi məqsədi ilə aşağıdakı sənədləri və məlumatları Şuraya təqdim edirlər:

- qiymətlərə baxılmasının zəruriliyinə dair müraciət və arayış;
- xidmətin göstərilməsinin hüquqi əsası barədə arayış;
- hər bir subyekt və malın (xidmətin) qiymətinin hesablanması üçün kalkulyasiya forması (1 nömrəli Forma) və bu Formaya 1, 2, 3 və 4 nömrəli əlavələr (xammal-material, enerjidaşıyıcıları, əmək haqqı və sair digər xərclərin açıqlanması, avadanlıqların, binaların istismarı və saxlanması, sex, ümumistehsal və istehsaldan kənar xərclərin ölçüləri haqqında arayış);
- əmtəə (xidmət) vahidi və ya dəsti üzrə təsdiq olunmuş əsas xərc maddələrinin (xammal, material, enerji, yanacaq və s.) sərf normaları;
- subyektin sərəncamında qalan mənfəətin istifadə olunma istiqamətləri;
- istehsalla (xidmətlə) bağlı göstərilən kənar xidmətlər, onların qiyməti və ümumi dəyəri;
- əvvəlki iki il və son hesabat dövrü üzrə xərc maddələri göstərilməklə malın (xidmətin) ümumistehsal (istismar) maya dəyəri (hesabat kalkulyasiyası);
- proqnozlaşdırılan maya dəyəri (istehsal (xidmət) ilə bağlı xərclərin açıqlanması) və mənfəət;
- vergi və digər ödənişlər;
- digər xərclərin açıqlanması;
- subsidiyaları ilə bağlı tədbirlər haqqında məlumat;
- debitor və kreditor borcların açıqlanması;
- təsərrüfat subyektinin maliyyə hesabatlarını auditor rəyi ilə birlikdə;
- yeni qiymətlərin layihələrinin qüvvədə olan qiymətlərlə müqayisəli cədvəli;
- uyğun qiymətlərin bir neçə region ölkələri üzrə səviyyəsi və tənzimləmə təcrübəsi barədə məlumat;
- dövlət tənzimləməsinə dair digər zəruri məlumat.

Subyektlər normativ hüquqi aktlarla müəyyən olunmuş formada hesabat dövrləri üzrə yekun göstəriciləri Şuraya təqdim edirlər.

2.10. Qiymətlərin dəyişməsinə dair təkliflərə baxılması və müvafiq qərarın təsdiq edilməsi aşağıdakı qaydada aparılır:

2.10.1. bu Qaydalarla müəyyən olunmuş formaya uyğun olaraq subyektlər tərəfindən qiymətlərin tənzimlənməsi üçün təqdim olunan materiallara baxılması və müvafiq qərarla təsdiq edilməsi onların xüsusiyyətlərindən, həcmindən, baxılma zəruriliyindən və digər amillərdən asılı olaraq Şura tərəfindən qəbul edilmiş təlimata uyğun olaraq həyata keçirilir;

2.10.2. qiymətlərin tənzimlənməsinə dair subyektlərin təşəbbüslərinə əsasən təqdim olunmuş layihələrdəki qiymətlərin sayından asılı olaraq 1 (bir) aya qədər

müddət ərzində baxılaraq münasibət bildirilir. Bu müddət qiymət layihələrinin əsaslandırılması üzrə son məlumatın daxil olduğu gündən hesablanır. Layihənin baxılması üçün müəyyən olunmuş sənədlər və məlumatlar tam təqdim edilmədikdə, Şuranın Katibliyi müraciət daxil olduğu tarixdən 5 (beş) iş günündən gec olmayaraq çatışmazlıqlar barədə subyektlərə yazılı məlumat verir, çatışmayan sənədlər və məlumatlar subyektlər tərəfindən 5 (beş) iş günü müddətində rəsmi qaydada təqdim edilir;

2.10.3. qiymət layihələrinin iqtisadi cəhətdən düzgün əsaslandırılmasının təmin edilməsi məqsədi ilə maya dəyərinə aid edilən xərc maddələri, vergilər, mənfəət və digər elementlər dəqiq araşdırılır. Bu zaman maya dəyərinə, qiymətlərə dair maraqlı tərəflərin (istehlakçıların) irad və təkliflərinə baxılır və onlar əsaslı olduqda nəzərə alınır;

2.10.4. zəruri hallarda ayrı-ayrı məsələlərin təhlili və ekspertizası üçün Şura tərəfindən ekspertlər dəvət oluna bilər. Ekspertlərin dəvət olunması və əməyinin ödənilməsi məsələləri Şura tərəfindən qəbul edilmiş təlimata uyğun olaraq həyata keçirilir. Ekspertlərin əməyinin ödənilməsi maraqlı tərəflərin razılığı olduğu hallarda və işin gedişatına təsir göstərməmək, eləcə də neytrallığı gözləmək şərti ilə subyektlər tərəfindən də maliyyələşdirilə bilər;

2.10.5. hazırlanmış layihələr Katibliyin təklifləri əsasında Şuranın gündəliyinə daxil edilir. Şuranın iclaslarında baxılan sənədlər Şuranın Əsasnaməsinə uyğun olaraq rəsmiləşdirilir;

2.10.6. subyektlərin məhsullarının (xidmətlərinin) qiymətlərinin tənzimlənməsinə zərurət yarandıqda, Şura bu işin icrasını qısa müddətdə təmin edir;

2.10.7. subyektlər üzrə təsdiq edilmiş qiymətlər cədvəl şəklində sənədləşdirilir. Bu sənədin ümumi göstərişlər bölməsində məhsulun (xidmətin göstərilməsi) satış şərtləri və xüsusiyyətləri əks etdirilir;

2.10.8. müəyyən edilmiş siyahı üzrə dövlət orqanları təsdiq olunmuş qiymət cədvəlləri ilə təmin edilir və qiymətlər kütləvi informasiya vasitələri ilə elan olunur;

2.10.9. qiymət cədvəlinin sənədləşdirilməsi forması Şura tərəfindən müəyyən edilir.

## *III. Qiymətlərin formalaşması və tətbiqi üzərində dövlət nəzarəti qaydası*

3.1. Qiymətlərin formalaşması və tətbiqi üzərində dövlət nəzarəti növbəti və növbədənkənar qaydada həyata keçirilir.

*Növbəti və növbədənkənar dövlət nəzarəti «Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında» Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda və qaydada aparılır.*

~~Növbədənkənar dövlət nəzarəti aidiyyəti dövlət orqanlarının təqdimatı, hüquqi və fiziki şəxslərin şikayətləri əsasında aparılır.~~

Zərurət olduqda, dövlət nəzarəti ekspertlər və mütəxəssislər cəlb edilməklə aparılır.

3.2. Dövlət nəzarəti zamanı dövlət nəzarətini həyata keçirərkən Şura aşağıdakı hüquqlara malikdir:

3.2.1. subyektlərin razılığı ilə onların istehsal (xidmət) sahələrinə maneəsiz daxil olmaq;

3.2.2. subyektlərdən zəruri məlumat və sənədlər almaq;

3.2.3. normativ hüquqi və normativ sənədlərin tələblərinin pozulması hallarını müəyyən etmək məqsədi ilə zəruri tədbirlər görmək;

3.2.4. normativ hüquqi və normativ sənədlərin tələblərinin pozulması hallarında qanunvericiliklə müəyyən edilmiş tədbirlər görmək.

3.3. Subyektlərin rəhbərləri və digər vəzifəli şəxsləri dövlət nəzarətinin həyata keçirilməsi üçün şərait yaratmalıdırlar.

*3.4. Dövlət nəzarətinin nəticələrinin rəsmiləşdirilməsi, dövlət nəzarəti materiallarına baxılmasının nəticələri üzrə qərarın çıxarılması və aşkar olunmuş pozuntu faktları üzrə tədbirlərin görülməsi «Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.*

~~3.5. Aşkar olunmuş pozuntunun aradan qaldırılması məqsədi ilə Şura subyektlərin rəhbərlərinə və digər vəzifəli şəxslərinə pozuntunu 3 (üç) gün müddətində aradan qaldırmaq barədə göstəriş verirlər.~~

Müəyyən olunmuş müddətdə göstəriş yerinə yetirilmədikdə, dövlət nəzarətini həyata keçirən qurum subyektlərə xəbərdarlıq etməklə müvafiq sənədləri aidiyyəti üzrə təqdim edir.

*«Dövlət tənzimlənməsi*
*tətbiq olunan tariflərin*
*(qiymətlərin) formalaşması və*
*tətbiqi üzərində dövlət*
*nəzarətinin təmin edilməsi*
*Qaydaları»na əlavə*

***1 nömrəli Forma***

Subyektin adı ____________________________________________

Malların (xidmətin) adı ____________________________________________

# Topdansatış qiymətinin (tarifinin) hesablanması kalkulyasiyası

***min AZN***

| **Sıra №-si** | **Göstəricilər** | **Son 3 ilin faktiki iqtisadi göstəriciləri** | | | | | | **Cari dövr üçün subyektin təklifi** | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | **faktiki göstərici** | **xüsusi çəkisi** | **faktiki göstərici** | **xüsusi çəkisi** | **faktiki göstərici** | **xüsusi çəkisi** | **göstərici** | **xüsusi çəkisi** |
| **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** | **8** | **9** | **10** |
| 1. | Təqdim edilmiş malların və göstərilmiş xidmətlərin həcmi, o cümlədən: | | | | | | | | |
| 1.1. | | | | | | | | | |
| 1.2. | | | | | | | | | |
| 2. | Xərc istiqamətləri | | | | | | | | |
| 2.1. | əmək haqqı, cəmi | | | | | | | | |
| 2.2. | o cümlədən, Sosial Müdafiə Fonduna ayırmalar | | | | | | | | |
| 2.3. | xammal və material, o cümlədən : | | | | | | | | |
| 2.3.1 | yanacaq və sürtkü materialları | | | | | | | | |
| 2.4. | istehsalla (xidmətlə) bağlı xərclər | | | | | | | | |
| 2.5. | amortizasiya xərcləri | | | | | | | | |
| 2.6. | maya dəyərinə daxil olan vergilər | | | | | | | | |
| 2.6.1. | əmlak vergisi | | | | | | | | |
| 2.6.2. | torpaq vergisi | | | | | | | | |
| 2.6.3. | sair vergilər | | | | | | | | |
| 2.7. | rabitə xərcləri | | | | | | | | |
| 2.8. | nəqliyyat xərcləri | | | | | | | | |
| 2.9. | kommunal xərcləri, o cümlədən: | | | | | | | | |
| 2.9.1. | su haqqı | | | | | | | | |
| 2.9.2. | elektrik enerjisi haqqı | | | | | | | | |
| 2.9.3. | qaz haqqı | | | | | | | | |
| 2.9.4. | tullantı suların axıdılması haqqı | | | | | | | | |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| 2.9.5. | istilik haqqı | | | | | | | | |
| 2.10. | ezamiyyə xərcləri | | | | | | | | |
| 2.11. | reklam xərcləri | | | | | | | | |
| 2.12. | mühafizə xərcləri | | | | | | | | |
| 2.13. | bank xidməti üzrə xərclər | | | | | | | | |
| 2.14. | borca və kreditə görə ödənilmiş faizlər | | | | | | | | |
| 2.15. | nümayəndəlik xərcləri | | | | | | | | |
| 2.16. | kadr hazırlığı xərcləri | | | | | | | | |
| 2.17. | elmi tədqiqat, layihə axtarış və təcrübə konstruktor işlərinə çəkilən xərclər | | | | | | | | |
| 2.18. | təmir xərcləri | | | | | | | | |
| 2.19. | sığorta xərcləri | | | | | | | | |
| 2.20. | digər xərclər | | | | | | | | |
| 3. | Cəmi xərclər | | | | | | | | |
| 4. | Malların (xidmətlərin) qiyməti | | | | | | | | |
| 5. | Mənfəət (zərər) | | | | | | | | |
| 6. | Rentabellik normasının səviyyəsi | | | | | | | | |
| 7. | ƏDV | | | | | | | | |
| 8. | Malların (xidmətlərin) qiyməti, ƏDV ilə | | | | | | | | |

**Qeyd.** Subyektlərin fəaliyyəti və maliyyələşməsindən asılı olaraq Formaya əlavə və dəyişikliklər edilə bilər.

**Müəssisənin rəhbəri**

**İqtisadiyyat şöbəsinin rəisi**

**Baş mühasib**

*1 nömrəli Formaya 1 nömrəli əlavə*

# Subyektin pul vəsaitlərinin hərəkəti

***min AZN***

| Sıra №-si | Göstəricilər | Son 3 ilin faktiki iqtisadi göstəriciləri | | | | | | Cari dövr üçün subyektin təklifi | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | faktiki göstərici | xüsusi çəkisi | faktiki göstərici | xüsusi çəkisi | faktiki göstərici | xüsusi çəkisi | göstərici | xüsusi çəkisi |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| 1. | Gəlir və daxilolmalar, cəmi, o cümlədən: | | | | | | | | |
| 1.1. | malların təqdim edilməsindən və xidmətlərin göstərilməsindən əldə olunan pul vəsaitləri | | | | | | | | |
| 1.2. | sair daxilolmalar | | | | | | | | |
| 1.3. | dövlət büdcəsindən ayrılan subsidiyalar | | | | | | | | |
| 1.4. | | | | | | | | | |
| 2. | Xərclərin istiqamətləri, o cümlədən: | | | | | | | | |
| 2.1. | büdcə ödənişləri cəmi, o cümlədən: | | | | | | | | |
| 2.1.1. | mənfəət vergisi | | | | | | | | |
| 2.1.2. | əlavə dəyər vergisi | | | | | | | | |
| 2.1.3. | aksiz | | | | | | | | |
| 2.1.4. | mədən vergisi | | | | | | | | |
| 2.1.5. | əmlak vergisi | | | | | | | | |
| 2.1.6. | torpaq vergisi | | | | | | | | |
| 2.1.7. | sair vergilər | | | | | | | | |
| 2.2. | əmək haqqı və ona bərabər tutulan ödənişlər, cəmi, o cümlədən: | | | | | | | | |
| 2.2.1. | əmək haqqı | | | | | | | | |
| 2.2.2. | gəlir vergisi | | | | | | | | |
| 2.2.3. | sosial sığorta haqları | | | | | | | | |
| 2.3. | əmək haqqı fondundan DSMF-yə ayırmalar | | | | | | | | |
| 2.4. | xammal və material, o cümlədən : | | | | | | | | |
| 2.4.1. | | | | | | | | | |
| 2.5. | rabitə xərcləri | | | | | | | | |
| 2.6. | nəqliyyat xərcləri | | | | | | | | |
| 2.7. | kommunal xərcləri, o cümlədən: | | | | | | | | |
| 2.7.1. | su haqqı | | | | | | | | |
| 2.7.2. | elektrik enerjisi haqqı | | | | | | | | |
| 2.7.3. | qaz haqqı | | | | | | | | |
| 2.7.4. | tullantı suların axıdılması haqqı | | | | | | | | |
| 2.7.5 | istilik haqqı | | | | | | | | |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| 2.8. | ezamiyyə xərcləri | | | | | | | | |
| 2.9. | reklam xərcləri | | | | | | | | |
| 2.10. | mühafizə xərcləri | | | | | | | | |
| 2.11. | bank xidməti üzrə xərclər | | | | | | | | |
| 2.12. | borca və kreditə görə ödənilmiş əsas məbləğlər, o cümlədən: | | | | | | | | |
| 2.12.1. | dövlət zəmanəti ilə alınmış kreditlər üzrə | | | | | | | | |
| 2.13. | borca və kreditə görə ödənilmiş faizlər, o cümlədən: | | | | | | | | |
| 2.13.1. | dövlət zəmanəti ilə alınmış kreditlər üzrə | | | | | | | | |
| 2.14. | vaxtı keçmiş borca və kreditə görə ödənilmiş faizlər, o cümlədən : | | | | | | | | |
| 2.14.1. | dövlət zəmanəti ilə alınmış kreditlər üzrə | | | | | | | | |
| 2.15. | nümayəndəlik xərcləri | | | | | | | | |
| 2.16. | kadr hazırlığı xərcləri | | | | | | | | |
| 2.17. | elmi tədqiqat, layihə axtarış və təcrübə konstruktor işlərinə çəkilən xərclər, o cümlədən: | | | | | | | | |
| 2.17.1. | normativ sənədlərin hazırlanması xərci | | | | | | | | |
| 2.18. | təmir xərcləri | | | | | | | | |
| 2.19. | sığorta xərcləri | | | | | | | | |
| 2.20. | dividendlərin ödənilməsi cəmi, o cümlədən: | | | | | | | | |
| 2.20.1 | büdcəyə ödənilən dividendlər | | | | | | | | |
| 2.21. | kapital və maliyyə qoyuluşları cəmi, o cümlədən: | | | | | | | | |
| 2.21.1. | tikinti-quraşdırma işləri | | | | | | | | |
| 2.21.2. | əsas vəsaitlərin alınması, o cümlədən : | | | | | | | | |
| 2.21.2.1 | avtonəqliyyat vasitələrinin alınması | | | | | | | | |
| 2.21.3. | qeyri-maddi aktivlərin alınması | | | | | | | | |
| 2.21.4. | torpaq sahələrinin alınması | | | | | | | | |
| 2.21.5. | qiymətli kağız və səhmlərin alınması, faizli istiqrazlara uzunmüddətli maliyyə qoyuluşları | | | | | | | | |
| 2.22. | sosial xərclər, o cümlədən: | | | | | | | | |
| 2.22.1 | qeyri-istehsal təyinatlı yaşayış evlərinin, təhsil və səhiyyə obyektlərinin tikintisinə | | | | | | | | |
| 2.22.2. | qeyri-istehsal təyinatlı obyektlərin əsas vəsaitlərinin yeniləşməsinə və əsaslı təmirinə | | | | | | | | |
| 2.22.3 | xeyriyyəçilik məqsədi ilə ödənişlər | | | | | | | | |
| 2.23. | digər xərclər | | | | | | | | |

**Qeyd.** Subyektlərin fəaliyyəti və maliyyələşməsindən asılı olaraq Formaya əlavə və dəyişikliklər edilə bilər.

**Müəssisənin rəhbəri**

**İqtisadiyyat şöbəsinin rəisi**

**Baş mühasib**

***1 nömrəli Formaya 2 nömrəli əlavə***

______________________________________________________________

*(məhsulun, işin, xidmətin adı)*

# Topdansatış qiymətinin (tarifinin) hesablanması üçün kalkulyasiya üzrə maya dəyərinə daxil edilən material xərclərinin

# Açıqlanması

| Sıra №-si | Xərclərin adı | Ölçü vahidi | Qiymət hesablanarkən məhsul (xidmət) vahidi üzrə norma ilə nəzərdə tutulmuş xərclər | | | Qeyd |
|---|---|---|---|---|---|---|
| | | | xərclərin normaları | qiymət, manatla | məbləğ, manatla (qr. 4x qr.5) | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |

A. Xammal və materiallar

__________________________

__________________________

B. Alınan komplektləşdirici məmulatlar, yarımfabrikatlar və əməkdaşlıq edilən müəssisələrin xidmətləri

__________________________

__________________________

«___» ______________ 200__ il

**İqtisadiyyat şöbəsinin rəisi** **Baş mühasib**

**Qeydlər:**

1. Alınan komplektləşdirici məmulatlar, yarımfabrikatlar və əməkdaşlıq edilən müəssisələrin xidmətləri bölməsində komplektləşdirici məmulatların tam siyahısı verilir.

2. Hesabat göstəriciləri ilə müqayisədə xammal və materialların dəyərindəki dəyişikliklərin nəyin hesabına baş verdiyi göstərilir.